Elçin GALİBOĞLU
Filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA Folklor İnstitutunun aparıcı elmi işçisi
E-mail: elchinimamaliyev@anas.az
ORCID ID: 0000-0002-0892-3075
https://doi.org/10.59849/2309-7949.2026.3.97

BÖLGƏ İNANCLARINDA MİLLİ KİMLİYİN ETNOMƏDƏNİ TƏZAHÜRLƏRİ
(Azərbaycanın Dağlıq Şirvan bölgəsinin folkloru əsasında)

Açar sözlər: bölgə inancı, Şirvan folkloru, milli kimlik, etnomədəniyyət, folklor variantlığı, mifoloji düşüncə, məkan yaddaşı.

ЭТНОКУЛЬТУРНЫЕ ПРОЯВЛЕНИЯ НАЦИОНАЛЬНОЙ ИДЕНТИЧНОСТИ В РЕГИОНАЛЬНЫХ ВЕРОВАНИЯХ
(на основе фольклора Горного Ширвана Азербайджана)

АННОТАЦИЯ

В статье региональные верования рассматриваются не только как локальные факты фольклорной традиции, но и как культурно-семиотические единицы – знаки, символы, образы, формы поведения, предметы и выражения, наделённые определённым значением и несущие информацию о соответствующей культуре – участвующие в формировании коллективной памяти, мировоззрения, норм социального поведения, пространственного сознания и национального самосознания в целом.

В исследовании уточняются методологические границы понятия «региональное верование». Обосновывается положение о том, что региональная принадлежность верования не означает его существования исключительно в пределах данного региона или возникновения именно в нём; при этом необходимо учитывать вариантность, являющуюся органическим свойством фольклорной традиции. Одно и то же верование может бытовать в различных регионах, однако в каждой конкретной фольклорной среде оно способно приобретать своеобразную языковую форму, семантику, функциональную нагрузку, ритуальный контекст и форму бытования. Поэтому широкая распространённость определённого верования не снижает его фольклорного статуса, напротив, передача его из поколения к поколению и региональная вариативность являются важными признаками его фольклорной природы. Подобное понимание соответствует общему подходу фольклористики к соотношению общенародного, регионального и локального в традиционной культуре, согласно которому региональные варианты не следует рассматривать как изолированные образования, оторванные от более широкой этнокультурной традиции.

В качестве материала для конкретизации теоретических положений в статье используются фольклорные материалы – мифологические тексты и тексты верований – собранные в Горном Ширване. Региональная вариативность верований, связанных с Эрдой, Ал/Хал и др., показывает, что локальный фольклор не является явлением, изолированным от общей системы азербайджанского фольклора. Напротив, региональный вариант представляет собой конкретную, обусловленную определённой культурно-пространственной средой и переосмысленную форму общей этнокультурной модели. Такой подход позволяет рассматривать локальные и региональные традиции как конкретные формы бытования более широкого этнокультурного содержания, сохраняя при этом их структурно-семантическую специфику.

Верования и культурные традиции, бытующие в различных регионах, играют существенную роль в формировании национальной идентичности. Основными факторами, объединяющими эти традиции, являются общая историческая память, язык, система символов,

обряды, ценности и мировоззренческие представления. Культурный опыт различных регионов, формирующийся в процессе исторического развития и передачи из поколения к поколению традиций, со временем оказывает существенное влияние на складывание общей культурной памяти. Национальная идентичность представляет собой этнокультурный феномен, формирующийся в результате взаимодействия и консолидации региональных различий вокруг общих исторических и культурных ценностей. В этом контексте региональные верования выступают не только как носители локальной культурной специфики, но и как формы выражения и сохранения общих компонентов этнокультурной памяти.

Ключевые слова: региональное верование, ширванский фольклор, национальная идентичность, этнокультура, фольклорная вариантность, мифологическое мышление, пространственная память.

ETHNOCULTURAL MANIFESTATIONS OF NATIONAL IDENTITY IN REGIONAL BELIEFS

(Based on the Folklore of the Mountainous Shirvan Region of Azerbaijan)

ABSTRACT

The article determines the nature of regional beliefs not merely as local folklore facts, but as cultural-semiotic units (signs, symbols, images, behaviours, objects, and expressions that carry a particular meaning and provide information about a given culture) that participate in the formation of collective memory, worldview, social norms of behaviour, spatial consciousness, and national self-awareness. The study clarifies the methodological boundaries of the concept of a "region-specific belief." It substantiates the view that being specific to a particular region does not necessarily mean that a belief exists only in that region or originated precisely there; rather, the variability inherent in the nature of folklore must be taken into consideration. The same belief may exist in different regions, while acquiring a distinctive language, semantics, function, ritual context, and form of narration in each folkloric environment. Therefore, the widespread nature of a belief does not diminish its folkloric status; on the contrary, its transmission from generation to generation and its variation are among the principal characteristics that determine the folkloric nature of that belief.

The article takes folklore materials (mythological and belief texts) collected in Mountainous Shirvan as examples for concretising the theoretical propositions. The regional variation of beliefs associated with Ardoy, Al/Hal, and others demonstrates that local folklore is not a phenomenon isolated from the general Azerbaijani folklore system. On the contrary, a regional variant is a form of the common ethnocultural model that has been reinterpreted within a specific geographical and cultural space. The beliefs and cultural traditions of people living in different regions play an important role in the formation of national identity. The principal factors that unite these traditions are common historical memory, language, symbols, rituals, values, and worldview. The cultural experiences (here: impressions) of different regions have, over time, contributed to the formation of a common cultural memory.

Keywords: regional belief, Shirvan folklore, national identity, ethnoculture, folklore variation, mythological thought, spatial memory.

Giriş. Milli kimlik probleminin mahiyyəti insanın özünü müəyyən tarixi, sosial və mədəni bütövlüyə aid etməsi ilə bağlıdır. İnsan öz kimliyini yalnız fərdi xüsusiyyətləri əsasında müəyyənləşdirmir, onun "mən" təsəvvürü müəyyən "biz" anlayışı ilə tamamlanır. Bu dil, tarix, yaddaş, adət, mərasim, folklor, inanclar, dəyərlər, simvollar vasitəsilə formalaşır. Bu baxımdan milli kimlik yalnız siyasi və hüquqi kateqoriya deyil, eyni zamanda mədəni yaddaş, özünüdərk formasıdır. Folklor milli kimliyin bu dərin qatlarının öyrənilməsi üçün mühüm mənbədir. İnanclar bu baxımdan xüsusi əhəmiyyət daşıyır. İnancın mətn forması çox vaxt lap qısa olur: "belə etmək olmaz, belə olanda belə olur", "bunu belə yozurlar" və s. Ancaq bu ifadələrin arxasında müəyyən tarixi təcrübə, mifoloji təsəvvür, sosial norma, kollektiv yaddaş dayanır. Müxtəlif Azərbaycan bölgələrində yayılmış

inanclar necə regional folklor faktına çevrilir, həmin regional folklor faktları milli kimliyin formalaşmasına hansı şəkildə təsir göstərir? Bu, ilk baxışdan sadə görünsə də, bir sıra suallar doğurur. Məsələn, bölgəyə məxsus inanc nədir? Eyni inancın müxtəlif bölgələrdə yayılması onun folklor statusuna təsir edirmi? Lokal inanc hansı məqamda milli kimlik göstəricisinə çevrilir? "Bölgəyə məxsus inanc" anlayışının yanlış anlaşılması regional folklor tədqiqatlarında metodoloji problemlər yarada bilər. Əgər "bölgəyə məxsus" ifadəsi "yalnız bu ərazidə mövcud olan" mənasında qəbul edilərsə, bu məntiqlə gərək Azərbaycan folklorunun variantlıq prinsipi nəzərə alınmasın. Folklor nümunəsi şifahi ənənədə dəyişməz qalmır, söyləyici, zaman, məkan, sosial mühit, kommunikativ şərait onun formasına, məzmununa təsir edir. Hər halda bu qənaəti belə ifadə etmək olar: bölgəyə məxsus inanc müəyyən folklor mühitində geniş yayılmış, kollektiv yaddaşda qorunan, lokal sosial-mədəni mühitlə əlaqələnən, həmin mühitdə özünəməxsus variant, funksiya, semantik çalar qazanan inancdır. Burada iki anlayışı fərqləndirmək vacibdir: mənşə və özünəməxsusluq. İnancın mənşəyi müəyyən edilə bilməsə də, onun regional məxsusluğu müəyyən edilə bilər. Məsələn, ümumtürk folklorunda geniş yayılmış su ilə bağlı inanc Dağlıq Şirvanda xüsusi mifoloji obrazla, müəyyən bulaqla və ya yerli qadağa ilə əlaqələndirilə bilər. Bu halda həmin inancın ümumi modeli genişdir, lakin onun Dağlıq Şirvan variantı regional folklor faktıdır. Araşdırmalarımızda bu məsələlərin mifoloji mahiyyətini aşkarlamağa çalışmışıq (Qaliboğlu, 2023; Qaliboğlu, 2020; Qaliboğlu, 2014). Habelə, təqdim edilən mənbələr mövzuya tam və hərtərəfli baxmaq imkanı verir. Ərdov və ya Ərdöy Azərbaycan folklorunun müxtəlif bölgələrində fərqli şəkildə təsəvvür edilən mifoloji obrazlardan biridir. Dağlıq Şirvan folklorundan, xüsusilə Ağsu rayonunun Kalva kəndindən topladığımız materiallar bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Kalvada Ərdöy obrazı uşaqlıqdan eşidilən folklor yaddaşının bir hissəsi olub, hətta çox güclü, dəlisov adamı xarakterizə etmək üçün "filankəs lap Ərdöy kimidir" ifadəsindən istifadə edilib. Təqdim etdiyimiz əsas variantda Ərdöy bulaq başında qadınlarla qarşılaşır. Qadınlar onun nehrəni necə çalxaladığını soruşurlar. Ərdöy isə yaxasındakı qıyığı çıxaracaqları halda bunun sirrini söyləyəcəyini bildirir. Qıyıq çıxarıldıqdan sonra Ərdöy qaçaraq meşəyə çəkilir. Burada eyni süjetin başqa variantlarını da qeydə almağımız təhlil üçün qənaətbəxş ipucları verir. Variantların birində qıyığı uşağın çıxardığı, digərində isə onun yaxaya deyil, sinəyə sancıldığı bildirilir. Bu detal araşdırmaq üçün gərəklidir, çünki burada Ərdöy adi folklor personajı deyil, insan məkanı ilə (kənd, oba, qazma) sırf təbiət (meşə) məkanı arasında yaşayan mifoloji varlıq kimi təqdim olunur. Onun bulaq başında görünməsi də təsadüfi sayılmır. Su mənbəyi qədim mifoloji düşüncədə insan dünyası ilə fövqəltəbii aləmin təmas nöqtələrindən biri kimi çıxış edir. C. Bəydili Ərdov (Ərdoy) obrazını Azərbaycan türklərinin inanclarında su ruhunu təcəssüm etdirən mifoloji varlıq kimi səciyyələndirir (Bəydili, 2003, s. 195). Kalvadan toplanmış folklor materiallarında isə Ərdoyun bulaqdan su daşıması, bulaq başında onun yaxasındakı qıyığın çıxarılması ilə bağlı motivlər bu mifoloji obrazın su ilə əlaqəsini konkretləşdirən lokal folklor variantı kimi diqqəti cəlb edir. Ərdöyün başqa bölgələrdəki variantları Kalva materialı ilə tam eyniyyət təşkil etmir. Qax-Zaqatala folklorunda Ərdöy (Ərdov) daha çox başqasını qorxutmaq üçün təsəvvür edilən xəyali varlıq, qulyabanı kimi anlaşılır. Beləliklə, Kalvada hazırda da söyləyicilərin yaddaşında yaşa-

yan mifoloji obraz burada daha çox qorxutma funksiyası daşıyır. Qədim türk təfəkküründə insanla təbiət arasında qarşılıqlı doğmalıq olub, Əcdad özünü bir an da təbiətsiz təsəvvür etməyib: bu düşüncə sistemində təbiət hər şeydən öncə ruhsallıq (canlılıq, mənəvilik, həyat mənbəyi) daşıyan mifoloji aləm kimi qavranılır. Təbiət obyektlərinin insanlaşdırılması, insanın təbiətlə əlaqələndirilməsi mifoloji düşüncənin mühüm xüsusiyyətlərindəndir. Bu baxımdan Ərdöyün su və meşə ilə əlaqələndirilməsi də insan–təbiət münasibətlərinin mifoloji modelində nəzərdən keçirilə bilər (Qaliboğlu, 2020, s. 106).

Ərdöy motivinin Anadolu folklorunda, xüsusilə Qars bölgəsindəki variant da diqqətəlayiqdir. Qarsda Ərdöy gecələr axurdakı atlara minən, onları səhərə qədər yorub tərlədən, atların yalını hörən qüvvə kimi təsəvvür edilir. At sahibləri isə onu tutmaq üçün atın belinə qır sürtür, qıra iynə batırırlar.

Su Azərbaycan mifoloji düşüncəsində yalnız təbii ünsür kimi deyil, yaradılış və həyatın başlanğıcı ilə bağlı sakral element kimi çıxış edir. Mifoloji dünya modelində su canlı və obrazlı şəkildə təsəvvür edilir. Bu baxımdan su ilə bağlı inanclar onun insan həyatındakı fiziki funksiyası ilə yanaşı, mifoloji və sakral mahiyyətini də əks etdirir. Su stixiyasının bu xüsusiyyətləri onun folklor mətnlərində müxtəlif obraz və motivlər şəklində yaşamasını şərtləndirmişdir (Babək, 2011, s. 9, 40). Beləliklə, regional materialları bir yerdə nəzərdən keçirdikdə Ərdov/Ərdöy haqqında təsəvvürlərin vahid və dəyişməz olmadığını görürük. Kalvada su və meşə ilə bağlı mifoloji varlıq, Qax-Zaqatalada qorxuducu qulyabanı, Qarsda isə atlara təsir edən sirli, əlçatmaz şər obraz kimi çıxış edir. Ancaq bu fərqlərin arxasında ümumi bir mifoloji məzmun görünür: insan dünyasının sərhədində yerləşən, adi insan təcrübəsi ilə tam izah olunmayan, təbiət, gecə, su, meşə və heyvanlar aləmi ilə əlaqələndirilən fövqəltəbii varlıq təsəvvürü yaranır.

Şübhəsiz, ümumən Şirvan folkloru da Azərbaycan folklorunun çoxvariantlığının mühüm göstəricilərindən biri sayıla bilər. Ərdöy nümunəsi bu fikri konkret şəkildə təsdiqləyir: eyni mifoloji obraz müxtəlif coğrafi və mədəni mühitlərdə müxtəlif təsəvvür edilərək yaşayır. Deməli, Ərdov/Ərdöy regional inancların sadəcə ayrı-ayrı və əlaqəsiz nümunələri deyil. Onlar ümumi mifoloji yaddaşın müxtəlif bölgələrdə fərqli formalarda qorunmuş təzahürləri kimi qiymətləndirilə bilər. Bu nümunə göstərir ki, Azərbaycan folklorunda regional müxtəliflik ümumi mədəni yaddaşın parçalanması deyil; əksinə, həmin yaddaşın müxtəlif tarixi, coğrafi və etnomədəni mühitlərdə yenidən mənalandırılmasıdır. Habelə mifoloji düşüncənin bu kontekstdə araşdırılması göstərir ki, milli kimlik regional inancların mexaniki cəmi deyil. Ərdov/Ərdöy nümunəsində lokal fərqlər qorunmaqla yanaşı, ortaq mifoloji təsəvvür, oxşar obraz modeli və ümumi dünyagörüşü əsası da saxlanılır. Buna görə regional folklor materialları milli kimliyin parçaları kimi deyil, vahid tarixi-mədəni yaddaşın müxtəlif ifadə formaları kimi nəzərdən keçirilməlidir.

Dağlıq Şirvan bölgəsində – Kalva kəndində Qırxatlı Sərəki Baba piri ilə bağlı topladığımız material folklorda variantlılığın necə yarandığını göstərmək baxımından maraqlı nümunədir. Burada söhbət yalnız bir pir haqqında rəvayətdən getmir; konkret tarixi hadisənin – 1918-ci il Kalva faciəsinin – sonrakı nəsillərin yaddaşında mifoloji şəkildə yenidən mənalandırılmasından gedir. Məlumdur ki, 1918-ci ilin martında Bakıdan başlayaraq Azərbaycanın bir çox bölgələrində Azərbaycan Türklərinə qarşı ermənilər tərəfindən soyqırımı həyata keçirilib. Hə-

min dəhşətli tarixdən az sonra Türk – İslam ordusu Nuru paşanın rəhbərliyi altında Azərbaycana gəlmiş, hadisələr 1918-ci ilin 15 sentyabrında Azərbaycan Milli Ordusu ilə birlikdə Bakının qəhrəmancasına azad olunması ilə nəticələnmişdi. Bu mövzuda topladığımız mifoloji rəvayətdə deyilir ki, ermənilər Kalva kəndinə daxil olmaq istəyəndə Qırxatlı Sərəki Baba onların qarşısını kəsir, onların gözü qarşısında 40 atlı şəklində görünür. Bundan qorxan düşmən həmin yoldan kəndə girə bilmir, geri dönür; daha sonra Dilman, Xatman və Hacman kəndlərində qırğın törətdikdən sonra Kalvaya daxil olur. Burada mühüm məqam rəvayətin tarixi hadisəni olduğu kimi təkrarlamamasıdır: mifoloji inam önə keçmiş, tarixi hadisəyə müəyyən izah verilmişdir: düşmənin həmin tərəfdən Kalvaya girə bilməməsi "pir imkan vermədi" şəklində izah olunur. Yəni real tarixi hadisə folklor yaddaşında mifoloji səbəb-nəticə əlaqəsi ilə yenidən qurulur. Bu baxımdan "40 atlı" motivi də mühüm semantik funksiya daşıyır. Tarixi hadisənin yaddaşında konkret insanlardan ibarət müdafiə qüvvəsinin yerini müqəddəs məkanla əlaqələndirilən fövqəltəbii qoruyucu qüvvə tutur. Beləliklə, pir artıq sadəcə ziyarət edilən müqəddəs yer deyil, kəndi qoruyan canlı mənəvi qüvvə kimi təsəvvür edilir. Həmin pirdə bu gün də sıra ilə bitmiş hündür ağacların olduğunu qeyd edə bilərik. Onlar mifoloji yaddaşda düzülmüş ağac-adamlar, yaxud düşmənin qarşısında dayanan canlı sipər kimi qavranılır. Bu detal çox əhəmiyyətlidir (Qaliboğlu, 2023, s. 52–53). Folklor materiallarında tarixi hadisələrin yaddaşda qorunması onların yalnız fakt kimi saxlanılması ilə məhdudlaşmır. Tarixi hadisə folklor yaddaşında söyləyicinin dünyagörüşünə və kollektiv yaddaşa uyğun şəkildə yenidən mənalandırıla bilir. Cümhuriyyət dövrü ilə bağlı folklor materialları da tarix və folklor yaddaşının qarşılıqlı əlaqəsini göstərir. Bu baxımdan tarixi hadisələrin folklor mətnlərində yaşaması milli yaddaşın qorunması baxımından xüsusi əhəmiyyət daşıyır (Qaliboğlu, 2018, s. 442). Bu yaddaşın başqa bir ifadəsi 1918-ci il hadisələri ilə bağlı topladığımız materialda qorunur: "Tubi nənə danışırdi ki, türklər gəldilər bizi xilas elədilər... Türklərdi axı, bizi qurtarıblar." (Qaliboğlu, 2015, s. 63). Bu fakt 1918-ci il hadisələrinin xalq yaddaşında yalnız faciə kimi deyil, həm də xilas və qorunma təsəvvürü ilə birlikdə yaşadığını göstərir. Söyləyicinin yaddaşında türklər xilasedici obrazında təqdim olunur, bu təsəvvür kollektiv yaddaşın nəsildən-nəslə ötürülməsi ilə qorunur. Beləliklə, tarixi hadisə folklor yaddaşında emosional və etnomədəni məna qazanaraq sonrakı nəsillərin milli yaddaşının tərkib hissəsinə çevrilir (Qaliboğlu, 2015, s. 63). Folklorda variantlılıq yalnız bir süjetin müxtəlif mətnlərdə fərqli danışılması demək deyil. Variantlılıq həm də eyni hadisənin müxtəlif tarixi dövrlərdə və müxtəlif sosial-mədəni mühitlərdə yenidən mənalandırılmasıdır. Qırxatlı Sərəki Baba rəvayətində ilkin hadisə tarixi xarakter daşıyır, lakin onun xalq yaddaşında izahı mifoloji xarakter alır.

Dağlıq Şirvan folkloru ilə bağlı materiallarda Ərdöy haqqında təsəvvür bir variantda meşədə yaşayan qeyri-adi varlıq kimi, başqa variantlarda isə insanlara yaxınlaşan və müəyyən məişət fəaliyyəti göstərən mifoloji obraz kimi qorunub. Deməli, mifoloji yaddaş hazır və dəyişməz mətn saxlamır; obrazı və hadisəni yerli yaddaşın ehtiyaclarına uyğun yenidən qurur. Qırxatlı Sərəki Baba və Azərbaycan pirlərinin ümumi funksiyasına bir daha nəzər yetirsək görərik ki, Azərbaycan folklorunda pir və ziyarətgahlar çox vaxt yalnız dini ziyarət məkanı funksiyası daşımır. Onlar müqəddəslik, qorunma, şəfa, övlad arzusu, bərəkət, and, yaddaş və

sosial davranışın tənzimlənməsi kimi müxtəlif funksiyaları birləşdirən mədəni məkanlardır. Topladığımız folklor materiallarında pirlərin xüsusilə qoruyucu funksiyası ön plana çıxır. Pirin ərazisindəki suyu murdarlamaq, ağacları qırmaq və ətrafı zibilləmək günah hesab olunur. Bu, müqəddəs məkanın yalnız ziyarət edilən yer olmadığını, həm də müəyyən ekoloji və etik davranış qaydaları yaratdığını göstərir. Azərbaycanın müxtəlif bölgələrindəki pir inanclarında bu ümumi funksiya başqa formalarda da özünü göstərir. Bir pir xəstəlikdən qoruyur və şəfa verir, digəri övlad arzusu ilə ziyarət olunur, başqa biri bərəkət və ruzi ilə əlaqələndirilir, digəri isə kəndi, insanı və hətta bütöv bir icmanı təhlükədən qoruyan müqəddəs məkan kimi təsəvvür edilir. Beləliklə, funksiya dəyişsə də, pirin əsas semantik mahiyyəti olan insanla müqəddəs dünya arasında vasitəçilik qorunur. Qırxatlı Sərəki Baba rəvayətində bu vasitəçilik daha yüksək səviyyəyə qalxır: pirin qoruyuculuğu artıq fərdi insanı deyil, kəndi və onun əhalisini, yəni müəyyən bir bölgəni əhatə edir.

Sonuc. Araşdırma göstərir ki, folklor tarixi hadisəni sadəcə yadda saxlamır, onu yenidən mənalandırır. 1918-ci il hadisəsinin tarixi səbəbləri və real gedişi bir tərəfdə qalır, xalq yaddaşı isə həmin hadisəni müqəddəs məkanın qoruyucu qüvvəsi ilə əlaqələndirir. Beləliklə, tarixi hadisə əsasında yaranan rəvayət mifoloji izahla yaşayır, müqəddəs məkan formasında yeni yaddaş modeli yaranır. Bu baxımdan Qırxatlı Sərəki Baba rəvayəti folklor variantlılığının maraqlı nümunəsidir. Burada variantlılıq yalnız süjet fərqi deyil, tarixi faktın mifoloji yaddaşda yeni məna qazanmasıdır. Azərbaycan pirlərinin müxtəlif bölgələrdə şəfa, qorunma, bərəkət, övlad, and və kollektiv təhlükəsizlik funksiyalarını daşıması ilə birlikdə nəzərdən keçirildikdə isə daha ümumi bir nəticə meydana çıxır: regional pir inancları ayrı-ayrı, əlaqəsiz inanclar deyil; onların arxasında müqəddəs məkanın insanı, ailəni, ümumən yaşayış bölgəsini görünməz təhlükələrdən qoruması barədə ümumi etnomədəni təsəvvür dayanır.

ƏDƏBİYYAT

1. Babək A. *Azərbaycan folklorunda su ilə bağlı inanclar*. Bakı: Nurlan, 2011. 212 s.

2. Bəydili C. (Məmmədov). *Türk mifoloji sözlüyü*. Bakı: Elm, 2003. 418 s.

3. Qaliboğlu E. Folklorda Cümhuriyyət hadisələri // *Folklor milli kimlik kontekstində*. Beynəlxalq Elmi Konfransın materialları. İsmayıllı–Lahıc, 2018. S. 442–449.

4. Qaliboğlu E. "Soyqırım" konseptinə kosmoqonik yaradılış müstəvisində baxış (Azərbaycan əfsanə və rəvayətləri əsasında) // *"Soyqırımlar xalq yaddaşında" Beynəlxalq Elmi Konfransın materialları*. Bakı: Elm və təhsil, 2015. S. 61–76.

5. Qaliboğlu E. Dağlıq Şirvandan toplanmış folklor materiallarında mifoloji obraz və motivlər // *Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər*. 2023. № 1 (59). S. 47–59.